# "Səsin sehri"




Beynəlxalq Muğam Mərkəzində İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş "Səsin sehri" bədii qiraət müsabiqəsinin final mərhələsi keçirilib. Müsabiqə "Mədəniyyət" kanalı ilə birgə layihə üzrə gerçəkləşib.

Müsabiqə iştirakçıları Azərbaycanın klassik və müasir şairlərinin şeirlərini, yekun mərhələdə isə Nəsiminin qəzəllərini qiraət ediblər. Onların məharətini xalq artistləri Laləzar Mustafayeva, Əminə Yusifqızı və Əməkdar incəsənət xadimi İlham Rəhimli qiymətləndirib. Qaliblərə mükafatlar təqdim edilib.

Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 7.